# TARİX

**UOT: 902**

## QƏBƏLƏNİN TARİXİNƏ DAİR BƏZİ YENİ MÜLAHİZƏLƏR

**Qafar Cəbiyev**
**Tarix elmləri doktoru, professor**
**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu**
**Qafqaz Albaniyası şöbəsinin müdiri**
**Bakı, Azərbaycan**
**Email:** qafarcebiyev010@gmail.com
**Orcid:** 0009-0003-2354-2582

**Xülasə**

2500 ildən artıq yaşı olan və 800 ildən artıq bir müddətdə qədim Azərbaycan dövləti Albaniyanın baş şəhəri - paytaxtı olmuş Qəbələ şəhərinin qalıqlarının harada olduğu XX əsrin əvvəllərinədək elm aləminə belə bəlli deyildi. 1926-cı ildən başlanan və bu gün də uğurla davam etdirilməkdə olan genişmiqyaslı arxeoloji tədqiqatlar nəticəsində Qəbələ tarxinin bir çox qaranlıq səhifələrinə işıq salındı. Amma bununla belə Qəbələ tarixinin müxtəlif aspektləri ilə bağlı hələ də bır sıra sual doğuran məqamlar qalmaqdadır. Məsələn, eramızın əvvəllərində şəhər niyə yerini dəyişib? Paytaxt Qəbələdən Bərdəyə niyə köçürülüb? Qəbələnin dövrümüzə qədər gəlib çatmış qala divarları və bürcləri nə vaxt inşa edilib? XVIII əsrdə orada şəhər həyatı niyə sönüb? "Qəbələ" toponiminin etimoloji izahı barədə daha nə demək olar və s. Hansı ki, təqdim olunan məqalədə bütün bunlar barədə müəllifin mülahizələri öz əksini tapıb.

**Açar sözlər:** Albaniya, Qabələ, Qəbələ, qəbilə, qiblə, bulla, razılaşmaq, saziş bağlamaq

## НЕКОТОРЫЕ НОВЫЕ ДОВОДЫ ПО ИСТОРИИ КАБАЛЫ

**Гафар Джабиев**
**Доктор исторических наук, профессор**
**НАНА, Институт Археологии и Антропологии**
**Баку, Азербайджан**

**Резюме**

До начала 20 века миру науки даже не было известно, где находятся остатки города Габала, которому более 2500 лет и который более 800 лет был столицей древнего азербайджанского государства Албания. В результате масштабных археологических исследований, начавшихся в 1926 году и успешно продолжающихся сегодня, пролили свет во многие темные страницы истории Габалы. Однако, в различных аспектах истории Габалы все еще остаются спорные моменты. Например, почему город изменил свое местоположение в начале нашей эры? Почему столица была перенесена из Габалы в Барду? Когда были построены сохранившиеся до нашего периода крепостные стены и башни Габалы? Почему городская жизнь погасла в 18 веке? Что еще можно сказать об этимологическом объяснении топонима «Габала» и т.д. В представленной автором в данной статье все эти предположения нашли свое отражение.

**Ключевые слова:** Албания, Габала, Габала, племя, кыбла, булла, договориться, договориться

## SOME NEW CONSIDERATIONS ON THE HISTORY OF QABALA

**Gafar Cabiyev**
**Doctor of Historical Sciences, Professor**
**ANAS, Institute of Archaeology and Anthropology**
**Baku, Azerbaijan**

**Summary**

It wasn't even known to the world science,where are the ruins of Gabala city, which is more than 2500 years old and was the capital of the ancient Azerbaijani state of Albania for more than 800 years,until the beginning of XX century.Today according to the result of large-scale archaeological research,the great dark historical pages of Gabala is lighted,which started from 1926 and successfully continues.But, various history of Gabala,which connected with the some diffeent aspects, have been still remain controversial.For example, why the city has been changed its location at the beginning of our era?Why was the capital moved from Gabala to Barda?When were the fortress walls and towers of Gabala built, which have survived to this day?Why did urban life was switched off in XVIII century?And what else can be said about the etymological explanation of the toponym "Gabala" etc. Thus, it was given all author's thoughts were given in this article.

**Key words:** Albania, Gabala, Gabala, tribe, qibla (direction to which a Muslim turns when praying), bulla, come to an agreement, to sign into an agreement.



800 ildən artıq bir dövr ərzində qədim Azərbaycan dövləti Albaniyanın paytaxt şəhəri olmuş Qəbələnin tarixi uzun illərdir ki, tarixçi və arxeoloqlar tərəfindən davamlı olaraq öyrənilməkdədir. Xatırladaq ki, hələ 2000 il bundan əvvəl qədim Roma və yunan mənbələrində adı çəkilən Qəbələnin dəqiq yeri XX əsrin əvvəllərinədək heç elm aləminə belə bəlli deyildi. Məsələn, N.Karaulovun XX əsrin əvvəllərində ərəb coğrafiyaşünaslarının məlumatları əsasında tərtib etdiyi xəritədə Qəbələnin Alazan çayı vadisində, A.Yanovskinin Ptolomeyə istinadən yazdığına görə isə Türyançay vadisində olduğu bildirilirdi. V.Tomaçek və S.Nəfisi isə onu Nuxa (indiki Şəki) ərazisində, yaxud da Şəkidən bir qədər qərbdə lokalizə etmişlər. Markovun xəritəsində Qəbələ Şamaxının yanında, B.Dornun xəritəsində Şamaxıdan şimal-qərbdə, S.Yuşkovun 1937-ci ildə dərc etdirdiyi məqaləsində isə Qəbələnin Dağıstan ərazisində - Sulaq və Samur çayları arasında olduğu bildirilirdi [Qazıyev S., 1964, s.10; Cəbiyev Q., 2011, s.3]. Lakin ötən əsrin 20-ci illərindən başlayaraq Azərbaycan arxeoloqlarının tədqiqatları göstərdi ki, Qəbələnin lokalizəsi ilə bağlı söylənilən həmin versiyaların heç biri ciddi elmi əsasa söykənmir. Yəni, bu versiyalardan hər hansı birisini təsdiqləyəcək nə yazılı qaynaq, nə konkret faktoloji material, nə yerli toponim, nə də bunları bir-biri ilə bağlayacaq məntiqi əsas yoxdur. Təəccüblüdür ki, həmin versiyaların müəlliflərindən heç biri, nəinki Cənubi Qafqazda, ümumiyyətlə Qafqazın hüdudları daxilində "Qəbələ" adlı yeganə yaşayış məntəqəsinin məhz Azərbaycan ərazisində olduğunu nəzərə almamışdı. Söhbət indiki Qəbələ rayonunun Çuxur Qəbələ kəndindən gedir. O kənd ki, onunla 30 hektara yaxın sahəni əhatə edən qədim şəhər yeri qalıqlarını yalnız Qaraçayın dərəsi ayırır. Bu günədək öz əzəmətilə insanları heyran edən möhtəşəm qala divarları, qala qapısı və bürcləri, ərazisinin hər qarışında 5-6 m qalınlığında zəngin yaşayış qatının olduğu bir şəhər yeri! 1926-cı ildə görkəmli Azərbaycan arxeoloqu D.B.Şərifov ilkin kəşfiyyat qazıntısı aparanadək oranın məhz qədim Qəbələnin qalıqları olduğu heç kəsə bəlli deyildi [Шарифов Д. 1927, s.174-184]. O vaxtadək "Qəbələ" və "Çuxur Qəbələ" toponimləri arasındakı məntiqi bağlılığı da nəzərə alan olmamışdı.



**IV qazıntı sahəsindən görüntü**

XVIII əsrin ortalarından etibarən Qəbələdə həyatın sönməsinin əsil səbəbinin nədən ibarət olması elmi ictimaiyyətin hələ də dəqiq cavab tapa bilmədiyi əsas suallardan biridir. Maraqlıdır ki, XVIII əsrin ortalarında Qəbələ ilə bərabər Azərbaycanın daha bir neçə şəhərində həyat sönüb. Bəzi araşdırıcılar bunun qədim karvan yollarının istiqamətindəki dəyişikliklərlə, bir başqaları isə cəmiyyət həyatında baş verən sosial-iqtisadi təlatümlərlə əlaqəli olduğunu izah etməyə çalışıblar. Əlbətdə, bu amilləri də nəzərdən qaçırmaq doğru olmazdı. Lakin, hesab edirik ki, bu, bəzi şəhərlərdə həyatın sönməsini düşünmək üçün heç də əsas səbəb olmayıb. Fikrimizcə, əsas səbəb XVIII əsrin ortalarında bəzi Azərbaycan şəhərlərində, o cümlədən də Qəbələdə ağır epidemiya (vəba) yayılması, çoxsaylı insan itkisi, sağ qalan əhalinin epidemiya ocağına çevrilmiş ərazini tərk etməsi olub. Bax, beləcə Qəbələdə şəhər əhalisinin epidemiyadan qurtulan hissəsi Qaraçayın sağ sahilində kənd salaraq həyatlarını orada davam etdiriblər. Yeni yaşayış yerinin "Çuxur Qəbələ" adlandırılmasının isə çox sadə izahı var. Yəni, Qəbələ şəhər yeri ilə müqayisədə yeni yaşayış yeri nisbətən çökək – çuxur ərazidədir. Ona görə də yerli sakinlər oraya "Çuxur Qəbələ" adı veriblər.

1926-cı ildə D.B.Şərifov tərəfindən Qəbələ şəhər yerində başlanılan arxeoloji tədqiqatlar artıq yüz ildir ki, davam etdirilməkdədir [Babayev İ., Əhmədov Q., 1981; Əliyev İ., Qədirov F., 1985]. 2009-cu ildən etibarən Azərbaycan arxeoloqları ilə yanaşı, SEBA Assosiasiyasının dəvəti və dəstəyi ilə Cənubi Koreya alimləri də Qəbələ tarixinin arxeoloji cəhətdən araşdırılmasında bilavasitə iştirak edir [Cəbiyev Q., 2017, s.13; Джабиев Г., Ким Д., 2022, s.30-39]. Çoxillik və genişmiqyaslı tədqiqatlar nəticəsində qədim paytaxt şəhərimizin tarixinin bir sıra çox mühüm istiqamətlərinə dair, o cümlədən Qəbələnin ən azı eramızdan əvvəl V əsrdən etibarən şəhər kimi mövcudluğunu təsdiqləyən zəngin tapıntılar əldə olunub. Hansı ki, bu tapıntılar Azərbaycanın qədim dövlətçilik tarixinin və şəhər mədəniyyəti ənənələrinin dərindən və hərtərəfli öyrənilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir [Cəbiyev Q., 2018, s. 322-324].



**Qəbələnin qala bürclərindən görüntü**

Qəbələnin tarixi ilə bağlı uzun illər elmi ictimaiyyət üçün müəmmalı qalan məqamlardan biri də 461-ci ildə paytaxtın oradan Bərdəyə köçürülməsi məsələsidir. Yəni, necə oldu ki, 800 ilə yaxın bir müddət ərzində Albaniya dövlətinin baş şəhəri olan Qəbələ birdən-birə, özü də dövlətin daha yüksək inkişaf mərhələsində olduğu bir vaxtda paytaxt statusunu itirdi?! Yəni, paytaxt hansı səbəb ucbatından Bərdəyə köçürüləsi oldu?! Xatırladaq ki, bu məsələyə münasibət bildirən əksər tarixçi alimlərimiz bunu daha çox Qəbələnin tənəzzülü, Bərdənin isə yüksələn xətlə inkişafda olduğu ilə əsaslandırmağa cəhd ediblər. Lakin son illər həm Qəbələ, həm də Bərdədə aparılan genişmiqyaslı arxeoloji tədqiqatlar bu yanaşmanın əsla doğru olmadığını göstərdi. Yəni, V əsrdə Qəbələnin tənəzzülü ilə bağlı söylənilən mülahizələr elmi cəhətdən təsdiq olunmadı. Əksinə, son illərin tədqiqatları şəhərin erkən antik dövrdən başlanan yüksəlişinin XV-XVI əsrlərədək davam etdiyini təsdiqlədi. Arxeoloji tədqiqatlar zamanı şəhər infrastrukturunun müxtəlif sahələrinə aid aşkar olunan tapıntılar da bunu qəti şəkildə təsdiq edir. Deməli, V əsrdə paytaxtın Bərdəyə köçürülməsini Qəbələnin tənəzzülü ilə bağlamaq əsla doğru yanaşma deyil. Əslində V-VIII əsrlərdə və daha sonrakı dönəmdə həm Qəbələ, həm də Bərdə bu regionda marağı olan dövlətlərin orduları tərəfindən zaman-zaman basqın, hücum, qarət və dağıntılara məruz qalmalarına rəğmən yenə də inkişaf və yüksəlişdə olub. Bütün bunları xatırlatmaqla mətləbdən bir qədər uzaqlaşsaq da, son olaraq demək istədiyimiz odur ki, Albaniyanın paytaxtının guya Qəbələdən Bərdəyə köçürülməsi fikri ətrafında daha ciddi və əsaslı şəkildə düşünməyə ehtiyac var. Bundan əvvəlki cümlədə “guya” sözünü elə-belə işlətmədik. Ümumiyyətlə, V əsrdə Albaniyanın paytaxtı rəsmən Qəbələdən Bərdəyə köçürülübmü?! Bizcə, bu tam olaraq yanlış fikirdir. Nəzərə almaq lazımdır ki, o dönəmdə bir sıra ətraf dövlətlər kimi Albaniya da Sasani imperiyasnın tərkibinə daxil idi və Sasani mərzbanları tərəfindən idarə olunurdu. Sasani mərzbanları isə alban hökmdarları ilə birlikdə məhz paytaxtda, yəni Qəbələdə otururdu. Lakin İranda baş verən daxili toqquşmalar zəminində qohumu Mehranın şah Xosrovun intiqamından qorxaraq 30000 ailə ilə birlikdə qaçaraq Girdiman vilayətinə gəlməsi Sasanilərin Albaniyadakı idarəçiliyinə çox ciddi zərbə oldu. Şah Xosrov və əhatəsi qorxurdu ki, Mehran Sasanilərin düşmənləri, o cümələdən xəzərlərlə birləşərsə, bu, gələcəkdə onlar üçün çox böyük təhlükə mənbəyi ola bilər. Bunu şah Xosrovun Mehrana göndərdiyi məktubdan da çox asanlıqla sezmək olur. Dövrün salnaməçisi, alban tarixçisi Musa Kalankatuklunun “Albaniya tarixi” adlı əsərində yer alan həmin məktubda deyilir: “Qardaşım! Mənim sadiq qardaşım! Düşmən kimi məndən uzaqlaşma. Əgər sən mənimlə bir yerdə yaşamağı xoşlamırsansa bu məktub sənə çatanda nə qədər yol getmisənsə, Albaniyada yaşamaq üçün özünə

bir o qədər torpaq götür...” [Kalankatuklu M., 1993, s.101]. Bu məktubdan da göründüyü kimi, Sasanilər artıq Qəbələ də daxil olmaqla o yerləri Mehranilərin şəxsində bütövlükdə hakimiyyəti ələ keçirmək ərəfəsində alban Girdiman feodallarının idarəçiliyinə buraxmaq məcburiyyətində qalıb. Belə olan halda təbii ki, Sasani mərzbanının bundan sonra da Qəbələdə oturması artıq mümkünsüz idi. Məhz bu səbəbdən də Sasani rəhbərliyi onu Girdiman hökmdarlarının təsir dairəsindən nisbətən uzaqda olan Bərdəyə köçürməli olublar. Yəni, bu halda ölkənin paytaxtı deyil, mərzbanlığın qərərgahı Bərdəyə köçürülüb. Qəbələ isə əvvəlki kimi, bundan sonra da Albaniyanın baş şəhəri - paytaxtı olaraq qalıb [Cəbiyev Q., 2017, s.42-49].





**Qəbələ orta əsr miniatürlərində. Asəfinin 16-cı əsrə aid “Şücaətnamə” əsərindən**

“Qəbələ” toponiminin etimoloji cəhətdən izahı qədim paytaxt şəhərimizin tarixi ilə bağlı geniş maraq doğuran, lakin bugünədək dəqiq elmi izahı bəlli olmayan məsələlərdən biri olaraq qalmaqdadır. Müxtəlif vaxtlarda ayrı-ayrı tədqiqatçılar tərəfindən bu toponimin “qiblə”, “qəbilə”, “qobulu”, “kvedbelaka” kimi izahına cəhd edilmişdir. Amma açıq etiraf etməliyik ki, bu izahlardan heç birisi geniş elmi ictimaiyyət tərəfidnən heç də rəğbət qazanmayıb. Çünki, həmin adlardan heç birisinin zahiri uyğunluqdan savayı “Qəbələ” toponimi ilə heç bir özəl məntiqi bağlılığı görünmür. Əslində elə Qəbələ şəhərinin tarixi, onun ölkə miqyasındakı sosial-siyası və iqtisadi yeri, rolu və nəhayət, uzun illərin axtarışları nəticəsində aşkar olunmuş zəngin maddi mədəniyyət kolleksiyası da həmin toponimlərin elmi cəhətdən izahı baxımdan demək olar ki, heç bir ip ucu vermir.



**Konservasiya olunmuş arxeoloji qazıntı sahələrindən biri**

Fikrimizcə yuxarıda sadalanan ehtimallardansa daha çox ərəb dilində olan "qabələ" sözünün izahı və "Qəbələ" toponimi ilə onun həm forma uyğunluğu, həm də məntiqi bağlılığı üzərində düşünməyə dəyər. Xatırladaq ki, "qabələ" sözü ərəb dilində "razılaşmaq", "saziş bağlamaq", "sövdələşmək", "dilbir olmaq", "bir araya gəlmək" kimi mənalarda işlədilir. Təbiidir ki, ərəb mənşəli bu söz leksikonumuza daxil olduqdan sonra dilimizin normalarına uyğun olaraq "qəbələ" kimi tələffüz olunmağa başlanıb. Yəni, ərəb dilindəki "qabələ" sözünün Azərbaycan türkcəsində "qələbə" formasında yazılması və elə bu cür də səslənməsi tam olaraq məntiqlidir. Xatırladaq ki, rus tarixçiləri bir zamanlar Azərbaycanın da tərkibində olduğu dövlətlərin tarixindən bəhs edərkən "qabələ" sözünü rus dilinin qrammatikasına uyğunlaşdırmaqla "kabala" formasında işlətmişlər [Пигулевская Н., Петрушевский И., 1958, s.105]. Deməli, "qabələ" sözünün "qəbələ" və yaxud da "kabala" formasında işlədilməsi halları tarixən olub və bu gün də belədir.

Elə isə "qabələ" sözü ilə "Qəbələ" toponimi arasındakı məntiqi bağlılıq barədə nə demək olar?! Fikrimizcə bununla bağlı da çox ciddi ip ucu ola biləcək dəlil və sübutlar mövcuddur. Söhbət Azərbaycanın antik və ilk orta əsr şəhərləri, o cümlədən Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxsaylı bullalardan, yəni üzərində möhür əksi olan gil parçalarından gedir. Xatırladaq ki, "bulla"latın sözü olub "yumru", "peçat", "sənəd", "əşyanın üstünə vurulmuş möhür və ya birka" mənası bildirir. O da məlumdur ki, antik və ilk orta əsrlər dövründə bir çox yerlərdə, xüsusən də Yunanıstan, Roma, onlarla təmasda olan Şərq ölkələrində mülk və əmlak sahibləri mübadilə və icarə şərtlərini əks etdirən sənədlər üzərinə bu və ya digər formada möhür vurulması praktikasından geniş istifadə olunurdu. Hesab edirik ki, Qəbələ ərazisindən tapılmış analoji bullalardan da məhz subyektlər arasındakı əmlak, vergi, rüsum, xərrac və bu kimi münasibətləri sənədləşdirmək məqsədilə istifadə edilib.

Yeri gəlmişkən onu da xatırladaq ki, Qəbələnin əsas tədqiqatçılarından olan görkəmli arxeoloq İlyas Babayev hələ 1965-ci ildə Azərbaycanda ilk dəfə bullalara həsr olunmuş dissertasiya işi yazaraq onu müdafiə edib. Hansı ki, həmin əsərdə bullaların meydana gəlməsi, yayılma arealı, onların təsnifatı və üzərlərindəki təsvirlərin semantikası ilə bağlı məsələlər Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq elmi cəhətdən şərh olunub [Бабаев И., 1965].




**Qəbələ arxeoloji mərkəzi**

Qəbələ 800 ilə yaxın bir müddət ərzində ölkənin baş şəhəri – paytaxtı və başlıca sənət, mədəniyyət və ticarət mərkəzi olduğundan ora həm də vergi, xərac və icarə razılaşmalarının rəsmiləşdirildiyi yer olub. Fikrimizcə, Qabələ - "Qəbələ" toponimi də məhz bu münasibətlər zəminində meydana gəlib. Başqa sözlə, ərəb dilində olan "qabələ" sözünün Azərbaycan dilininin qrammatikasına uyğunlaşdırılmış variantı olan "Qəbələ" toponimi müqavilələrin, sazişlərin, icarə, xərac və digər münasibətlərin tənzimləndiyi, rəsmləşdirildiyi yer mənası bildirir. Bu baxımdan xüsusi maraq doğuran daha bir məqam ondan ibarətdir ki, Qəbələ tədqiqatları zamanı bullalar daha çox məhz Antik Qəbələ kimi tanınan ərazidən tapılıb. O ərazdən ki, orada bir-birinin yaxınlığında olan bir neçə iri ictimai bina, içərisində taxıl, fındıq və şərab qalıqları olan yüzlərcə sayda iri təsərrüfat küplərindən ibarət nəhəng anbar da aşkar edilib. Fikrimizcə, həmin tikinti və anbarların təyinatının nədən ibarət olmasından asılı olmayaraq, onların hər birində həm də müəyyən mübadilə, vergi, rüsum, xərac, sövdələşmə razılaşma məzmunlu əməliyyatlar aparılıb. Mümkündür ki, Qəbələ ölkənin baş şəhəri – paytaxtı olduğu dönəmdə, təkcə lokal və regional deyil, bəlkə də lap elə beynəlxalq miqyaslı tranzit sövdələşmə, razılaşma mərkəzi olub. Arxeoloji axtarışlar zamanı şəhər ərazisindən tapılan çoxsaylı, həm də rəngarəng çeşidli maddi mədəniyyət nümunələri, xüsusən də dünyanın müxtəlif ölkələrində və şəhərlərində zərb olunmuş pulların tapılması da sözsüz ki, belə intensiv əlaqələrin olduğundan xəbər verir.

**ƏDƏBİYYAT**

1. Babayev İ., Əhmədov Q.M. Qəbələ, Bakı, 1981.
2. Cəbiyev Q.C. Qəbələdə arxeoloji tədqiqatların ən mühüm nəticələri. Bakı, 2017.
3. Cəbiyev Q.C. Azərbaycan arxeologiyasının əsasları. Bakı, 2018.
4. Əliyev İ.H. Qədirov F.V. Qəbələ, Bakı, 1985.

5. Qazıyev S.M. Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi. AMM, V cild, Bakı, 1964, s.7-67.
6. Kalankatuklu M. Albaniya tarixi. Bakı, 1993.
7. Бабаев И.А. Памятники глиптики Азербайджана античной и эпохи раннего средневековья. Автореферат канд. ист.дисс. Баку, 1965.
8. Джабиев Г., Квон Оюн, Ким Днюнчив, Наджафова И.М. и др. Некоторые итоги исследований Азербайджана – Корейской Габалинской Международной археологической экспедиции. Этнокультурное наследие Кавказской Албании. Баку, 2022, №3, с.30-39.
9. Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленицкий А.М. История Ирана с древнейших времен до конца XVIII века. Л., 1958.
10. Шарифов Д.Б. Обследование развалин Кабалы // Изв. Общества обследования и изучения Азербайджана. Баку, 1927, №4, s/174-184.

Rəyçi: Azərbaycan Milli Elmlər Akademiyası

t.e.d., prof. Arif Məmmədov